*Mahmudova Gülnar Qabil qızı, magistrant,*
*Bakı Biznes Universiteti,*
*Email: gmahmudova996@gmail.com*

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ KİÇİK BİZNESİN SƏMƏRƏLİ TƏŞKİLİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Azərbaycan Respublikasında səmərəli milli iqtisadiyyatın yaradılması ölkədə sahibkarlıq sektorunun inkişafını tələb edir. Bu sektor daxili bazarı keyfiyyətli məhsul və xidmətlərlə təmin edir, respublikanın ixracat potensialını artırır, əhalinin məşğulluq səviyyəsini yüksəldir, dövlət büdcəsinin formalaşmasında mühüm yer tutur, milli iqti-

sadiyyatda rəqabəti gücləndirməklə onun səmərəliliyinə təsir göstərir. Kiçik biznesin üstünlüklərinə daxildir:

- **Daha innovativ olması.** İqtisadi dəyişikliklərə və tələbata daha tez uyğunlaşması və problemlərə daha asan və yenilikçi həll yollarının tapılmasına şərait yaradır. Yeni texnalogiya və ya idarəetmə sistemlərinin sınaqdan keçirilməsi, daim daha yaxşısına nail olmaq üçün risketmə dərəcəsinin yüksək olması kiçik müəssələrin uğur sirlərindəndir.

- **Özü-özünü idarəetmə.** Bu sahibkarı öz fəaliyyətində həvəsləndirən əsas amillərdən biridir. Hər bir sahibkar rəhbəri olduğu müəssəyə öz övladı kimi yanaşır və onun daha uğurlu inkişaf yolu üçün əzmlə çalışır.

- **Müştərilərlə birbaşa əlaqələrin daha möhkəm qurulması.** Daha kiçik və yığcam olma daha rahat və sürətli idarəetmə təmin edir ki, buda müştərilərin nə istədiklərini, onların tələbatını, irad və təkliflərini daha tez zamanda öyrənməyə və adekvat tədbirlər həyata keçirməyə imkan yaradır.

- **Dövlət dəstəyi.** Dövlət siyasətinin tərkib hissələrindən biri iqtisadiyyatda xüsusi çəkisi olan kiçik biznesə dəstək olmaqdan ibarətdir. Əgər dövlət kiçik biznesi dəstəkləsə, normativ hüquqi bazanı düzgün formalaşdırsa, müəyyən vergi güzəştləri və subsidiyalar tətbiq etsə, bu, kiçik biznesin ölkədə uğurla inkişafına gətirib çıxaracaq.

- **Daha az resurs və xammal tələbi.** Kiçik müəssisələr daha az resurs və xammal hesabına daha çox məhsul istehsalı üzrə ixtisaslaşırlar.

- **Daha az investitsiya cəlbi.** İlkin mərhələdə kiçik biznesin fəaliyyətə başlaması və fəaliyyətini davam etdirməsi üçün daha az maliyyə resurslarına tələb var. Bu da özünə güvənən, yaxşı biznes ideyası olan şəxslərin fəaliyyətə başlaması üçün onları stimullaşdırır.

Kiçik biznes üçün təhlükə yaradan və onun uğursuzluğuna səbəb olan faktorlar vaxt və nizamsızlıq ola bilər. Müəssisə kiçik olduğunda idarəetmədəki asanlıq rəhbərləri düzgün zamanlama və planlamada arxayınlaşdıra bilər. Bu da nəticə etibarı ilə fəaliyyətin davamı prosesində düzgün strategiyanın qurulmaması səbəbindən uğursuzluğa səbəb ola bilər. Bununla yanaşı uğursuzluq aşağıdakı amillərin təsiri ilə də formalaşa bilər.

- **Rəhbərin dəyişməsi.** Rəhbər vəzifə tutan şəxsin digəri ilə əvəz olunması zamanı yeni rəhbər müəssənin spesifik xüsusiyyətlərinə tanış olmaya, gələcək planlardan az xəbərdar ola və istehsal potensialını düzgün qiymətləndirməyə bilər ki, bu da inkişaf strategiyasından və istehsal planından yayınaraq uğursuzluğa səbəb ola bilər.

- **Bazarın düzgün öyrənilməməsi.** Tələbatın, rəqiblərin ümümilikdə mövcud iqtisadi mühitin düzgün araşdırılaraq təhlil edilməməsi biznes subyektinin fəaliyyətinin ləngiməsinə, gəlirlərinin azalmasına və uğurlu olmamasına səbəb ola bilər.

- **Maliyyə çətinlikləri.** İnvestorların və ya kreditorların biznesə dəstəklərinin azalması və ya tamamən dayanması nəticəsində biznes maliyyə çətinlikləri ilə qarşılaşacaq. Fəaliyyətin davamlılığının təmin olunması üçün əlavə maliyyə ehtiyatları cəlb olunmazsa, müəssisə uğursuzluqla üzləşə bilər.

- **İqtisadi vəziyyət.** Ölkədə iqtisadiyyatın mövcud vəziyyəti müəssisə və firmaların fəaliyyətinə birbaşa təsir edir. İşsizlik, iqtisadi artım, inflyasiya, faiz dərəcələri birbaşa və dolayı yolla biznes subyektlərinə təsir göstərir. Bu təsirlərin cəmi müsbət olduqda biznes inkişaf edir-uğur qazanır, əksinə mənfi təsirlər nəticəsində uğursuzluğa

düçar olaraq iflasla üzləşir.

Azərbaycanda sahibkarlığa dövlət dəstəyi təmin edən əsas qurum Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi hesab olunur. Sahibkarlığa dövlət yardımının bütün istiqamətləri Nazirlik xətti ilə müəyyənləşdirilir, tədbirlər planları hazırlanır və həyata keçirilməsinə birbaşa nəzarət olunur.

Ölkəmizdə kiçik və orta sahibkarlığa dövlət qayğısının həyata keçirilməsi məqsədilə bir sıra mexanizmlər, bu istiqamətdə dövlət siyasəti və tədbirlər planı müəyyənləşdirilərək həyata keçirilməkdədir. Lakin müasir dövrün tələblərinə uyğun iqtisadiyyatın formalaşması üçün dövlət öz siyasətində inkişaf etmiş dövlətlərin təcrübəsinə müraciət etməlidir.

İşğaldan azad olunmuş ərazilərdə biznes fəaliyyətinin həyata keçirilməsi məqsədilə fiziki və hüquqi şəxslər tərəfindən indiyədək Agentliyə 409 müraciət daxil olmuşdur. Bu müraciətlərin 93-ü (23%) sənaye, 104-ü (25%) ticarət və xidmət, 70-i (17%) tikinti, 69-u (17%) kənd təsərrüfatı, 34-ü (8%) turizm, 5-i (1,2%) təhsil, 1-i (0,2%) nəqliyyat və logistika və 33-ü (8,5%) isə digər sahələri əhatə edir. Daxil olan müraciətlərdən 53-ü 12 xarici ölkəni (əsasən Türkiyə, Rusiya, Macarıstan, Pakistan və Qazaxıstandan olmaqla) təmsil edən şirkətlər tərəfindən təqdim edilmişdir.

Qarabağ bölgəsində çox geniş turizm potensialı var. Qarabağ bölgəsinin olduqca zəngin, mənzərəli, misilsiz təbiətə və tarixi abidələrə malik olduğunu nəzərə alsaq, bu regionun Azərbaycanın əsas turizm zonalarının birinə çevrilməsi ehtimalı yüksəkdir.

İnnovativ KOB-ların inkişafının effektivliyi əsasən yol sektorunun inkişafı ilə müəyyən edilir. İlk layihəyə artıq start verilib - mürəkkəb relyefli ərazidən keçən Əhmədbəyli-Alxanlı-Füzuli-Şuşa yolunun inşası başlanılıb. Göygöl-Toqanalı, Kəlbəcər-İstisu, Kəlbəcər-Laçın, həmçinin Horadiz-Mincivan yollarının tikintisi üçün bir neçə layihə hazırlanır.

Azərbaycan Respublikasında kiçik və orta biznes özündə potensial formalaşdırmışdır. Başqa sözlə desək, kiçik və orta sahibkarlığın inkişafının müasir səviyyəsi bazar tipli iqtisadiyyatın formalaşmasının ilkin mərhəlsinə uyğundur və hələ ki, öz potensial imkanlarının tam reallaşdırılmasından uzaqdır. Bununla yanaşı, onun sahəvi quruluşunun səmərəli olmamasına baxmayaraq, ölkədə iqtisadi islahatların həyata keçirildiyi dövr ərzində kiçik və orta sahibkarlığın inkişaf prosesinə müsbət meyl xas olmuşdur.

**İstifadə olunmuş ədəbiyyat:**

1. "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin materialları ". Bakı, 2011.

2. "İtki və tələfatların qiymətləndirilməsi üzrə Avropa Qiymətləndiricilər Birlikləri Assosasiyasının Standartları", Bakı, 2015.

3. Джеффри Д САКС, Фелипе Ларрен Б. «Макроэкономика» Глобальный подход. Издательство - Москва, 2006, 320 с.

4. https://smb.gov.az/ru/all-news/tika-zainteresovano-v-razvitii-sektora-msb-v-osvobozhdennykh-rayonakh-azerbaydzhana

5. http://interfax.az/view/825603